**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TAHİRƏ MƏMMƏDBAĞIR qızı SALMANİPUR**

# İRAN QACARLARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

**İxtisas: 5502.01 – Ümumi tarix**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2017**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor T.T.Mustafazadə

Tarix üzrə fəlsəfə doktoru, dosent E.K.Süleymanova

**Aparıcı müəssisə:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix kafedrası"

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «___» ___________2017-ci il tarixli iclasında, saat______ keçiriləcəkdir

**Ünvan**: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «____» _________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XVIII-XX əsrlərdə təkcə Azərbaycanın və İranın deyil, habelə bütövlükdə Ön Asiya və Orta Şərqin hərbi-siyasi tarixində mühüm rol oynamış Qacarlar sülaləsinin hakimiyyəti dövründə bu sülaləsinin yaratdığı səltənətin tərkibinə daxil olmuş ayrı-ayrı ölkələrin həmin dövr tarixinin araşdırılması həm elmi, həm də nəzəri-siyasi cəhətdən olduqca aktual elmi problemdir. Bu baxımdan qonşu İranın Qacarlar sülaləsinin hakimiyyəti dövrü tarixinin tədqiqi, həm də, ümumi tarix elmi qarşısında duran aktual və mühüm bir elmi problemdir. Bu problemin araşdırılması ilk növbədə ona görə aktual elmi vəzifədir ki, bu dövrdə də Azərbaycanın çox böyük bir hissəsi – Cənubi Azərbaycan həmin səltənətin tərkib hissəsi idi. Digər tərəfdən, Azərbaycan Qacarlar sülaləsinin yaradıb idarə etdikləri həmin İran dövləti Şimali Azərbaycanda gedən hərbi-siyasi proseslərə fəal müdaxilə etmiş, həmin proseslərin bir çoxunun fəal iştirakçısı olmuşdur.

Bu problemin öyrənilməsinin aktuallığını artıran əsas amillərdən biri də ondan ibarət idi ki, bütöv bir sıra səbəblər üzündən uzun onilliklər boyu Ağa Məhəmməd Şah Qacar və onun məxsus olduğu Azərbaycan sülaləsi, bu sülalənin fəaliyyəti sırf mürtəce bir qüvvə, bu sülalənin yaratdığı dövlət isə ancaq qaragüruh bir qurum, bu sülalənin İranda təxminən 130 illik hakimiyyəti isə ancaq tənəzzül kimi qiymətləndirilmiş, Qacarlar sülaləsinin İranda və Cənubi Azərbaycanda siyasi pərakəndəliyə son qoyduqları, Ön Asiya və Orta Şərqdə hökmranlığa can atan hərbi-siyasi güc mərkəzlərinin mürtəce ümid və istəklərinə bacardıqları qədər müqavimət göstərdikləri qətiyyən nəzərə alınmamışdır.

Ona görə də hesab edirik ki, Qacarlar sülaləsinin hakimiyyəti dövründə İran tarixinin öyrənilməsi həm İran və Azərbaycanın XVIII əsrin 80-ci illəri – XX əsrin əvvəllərini əhatə edən dövrünün tarixinin öyrənilməsi, həm də Qacarları sülaləsi xatirəsi qarşısında olan borcun müəyyən qədər ödənilməsi baxımından elmi-mənəvi borc və mühüm bir vəzifədir.

**Tədqiqatın xronoloji çərçivəsi**. Qacarlar sülaləsinin İrandakı hakimiyyəti dövrünə (1797-1925) uyğun olaraq mövcud dissertasiyada İranın XVIII əsrin sonundan ta Pəhləvilər sülaləsinin (1925-1979) bu ölkədə hakimiyyətə gəldikləri dövrə - 1925-ci ilədək olan tarixi tədqiq olunur.

Məlumdur ki, XVIII əsrin 80-cı illərinin ikinci yarısında Qacar elinə məxsus olan Azərbaycan türkləri İranda hakimiyyət başına gəldilər. Qacarlar sülaləsi dövrünü İranda çoxlu dəyişikliklərin əsasının qoyulduğu

bir dövr hesab etmək olar. Bu əsr Avropa mədəniyyəti qarşısında bütün istiqamətlər üzrə siyasi, ictimai, mədəni və iqtisadi dəyişikliklərin başlandığı dövr idi. Bu dövrdə dünya iqtisadiyyatında baş verən ciddi dəyişikliklər, Avropada bazar iqtisadiyyatının sürətli inkişafı, İranda baş verən ciddi hərbi-siyasi proseslər ölkənin inkişafı yolunda ciddi maneələr yaratmış, dünya iqtisadiyyatında inkişaf və dəyişiklik baş verdiyi zaman Qacarlar səltənəti çox ciddi maneələrlə üz-üzə qalmışdı. Lakin bunlara baxmayaraq sözügedən dövrdə Hacı Əminüzzərb Talıbov Təbrizi, Mirzə Mülküm xan Marağayi və b. kimi bəzi siyasi xadimlər İran iqtisadiyyatının inkişafında mühüm rol oynamışdılar.

Bu tədqiqat işində İranda Azərbaycan Qacarlar sülaləsinin hakimiyyət başında olduqları dövrdə baş vermiş dəyişiklikləri ehtiva edən tarixi sənədlərin tədqiqi nəticələri analiz edilmişdir. Əsərdə həmçinin yarandığı vaxtdan süqut etdiyi tarixə qədər Qacarlar dövründə baş verən dəyişikliklərin müxtəlif cəhətlərdən araşdırılmasına səy göstərilmişdir.

İranın yeni dövr tarixində Qacarlar sülaləsinin hakimiyyət başına gəlməsi xüsusi əhəmiyyət daşıyır. Həmin dövrdə beynəlxalq münasibətlərin siyasi və iqtisadi maraqlar əsasında formalaşdığı halda İranı idarə edən Qacarlar sülaləsinin nümayəndələri bundan əsasən xəbərsiz idilər. Bu da İrana  çox ciddi sosial, iqtisadi hə hərbi-siyasi ziyanlar gətirdi. Dövlətin siyasi və ictimai vəziyyəti beynəlxalq əlaqələrin təsirindən son dərəcə asılı idi. Dövrün siyasətçiləri və aydınları ölkədə islahat aparmaq üçün çox səylər göstərsələr də, ictimai və siyasi problemlər bir çox maneələr səbəbi ilə öz həllini tapmırdı. Qacarlar sülaləsinin hakimiyyəti dövründə İran dövləti siyasi və iqtisadi cəhətdən bir çox zərbələrə məruz qaldı. Eyni zamanda Qacar şahlarının diktaturası, müstəmləkəçilərin nüfuzu, əcnəbilərə iqtisadi və siyasi imtiyazlar verilməsi məsələləri bəzi siyasət xadimlərini  və mütəfəkkirləri İranın müxtəlif sahələrdə geriləməsinin əsas səbəblərini araşdırmağa vadar edirdi. İranın zəifləməsi haqqında təsəvvürlər 1804-1813, 1826-1828-ci illər Qacarlar İranı ilə çar Rusiyası arasındakı müharibələrdə İranın məğlubiyyətindən sonra qəti şəkildə formalaşmışdı. Bu hərbi məğlubiyyətlər müstəmləkəçilərin nəinki Qacarlar hakimiyyətinin Cənubi Qafqazdakı təsirinə son qoydu, həmçinin ölkədə iqtisadi və siyasi nüfuzunun aşağı düşməsi üçün əlverişli zəmin yaratdı. Bu müharibələr və onların nəticələri ilə yaxından tanış olan bəzi dövlət xadimləri geriliyin səbəblərini araşdırmaq və aradan qaldırmaq qərarına gəldilər. Bu dövlət xadimlərinin həyata keçirmək istədikləri islahatlar bir sıra maneələr üzündən nəticəsiz qaldı.

**Mövzunun öyrənilmə səviyyəsi.** Problemin tarixşünaslığının təhlilinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, aşağıda haqqında danışacağımızın böyük əksəriyyəti keçmiş sovet və çağdaş Azərbaycan tarixi elmində tarixşünaslıq və qaynaqşünaslıq haqqında formalaşmış dəqiq bölgüyə müəyyən hallarda müvafiq gəlmir. Belə ki, XIX-XX əsrlərdə İranda bu və ya digər şəkildə işıq üzü görmüş əsərlərin bir çoxu Bakı, Moskva, Peterburq, Kiyev, Tiflis və başqa elmi mərkəzlərin gözündə farsdilli mənbə statusu qazanmışdır. Ona görə də bu dissertasiyanın «Giriş»indəki tarixşünaslıq və mənbəşünaslıq bölümlərdə nəzərdən keçiriləcək əsərlər arasındakı «sərhəd» bir qədər şərtidir.

Qacarlar sülaləsinin İranda hakimiyyəti dövründə yaşayıb yaratmış bir sıra salnaməçilərin – Əbdürrəzzaq bəy Dönbəli, Rzaqulu xan Hidayət, Mirzə Məhəmmədsadiq Mərvəzi, Mirzə Məhəmmədtəqi Lisanül-mülk, Əbu Məhəmməd Nadir Mirzə və başqalarının əsərləri İranın Qacarlar dövrü tarixinin öyrənilməsi baxımından ciddi addımlar sayıla bilər.

Şərq saray tarixşünaslığı ənənələrindən yaxa qurtara bilməsələr də, onlar hakimiyyəti altında olduqları bir çox halda qulluq etdikləri rejimin mənafelərini tarixi gerçəklik və obyektivlikdən uca tutsalar da, əksər hallarda, gördüklərini yazan bu müəlliflərin əsərlərində bizi maraqlandıran problemin araşdırılmasına imkan yaradan çox qiymətli məlumatlar vardır. Onların bir neçə ən əsaslarını nəzərdən keçirək:

Bir çox mütəxəssislərin fikrincə, Qacarlar hakimiyyəti dövründə, xüsusilə də Fətəli Şahın hakimiyyəti illərində taxt-tac sahibləri tarixə və tarixnəvisliyə ciddi maraq göstərmiş ayrı-ayrı müəllifləri bu işə həvəsləndirmişdilər.[1] Məsələn, Fətəli şahın tarixçilərlə fikir mübadilələrini, onun bu elmə marağı haqqında müxtəlif məlumatlar vardır.[2]

Öz kitabxanasında xarici dillərdə yazılmış kitablardan ibarət xüsusi fond yaratmış Abbas Mirzə,[3] xüsusi tarixi əsərlər yazmağa təşviq edən Məhəmməd Şah Qacar və Qacarlar sülaləsinin başqa nümayəndələri də tarixşünaslığa böyük maraq göstərirdilər.

Qeyd etmək lazımdır ki, İranın tarixi mənbələri yazılı əsərlərdən ibarət geniş bir spektri əhatə edir. Bunlardan xronologiya kitabları, təzkirələr,

---

[1] Abrahamyan Yarvənd, İran iki inqilab arasında (Məşrutədən İslam inqilabına kimi, Kazın Firuzmənd Həsən Şəmsavəri və Möhsün Müdirşanəçinin tərcüməsi, Tehran, 1387, s.188-189.

[2] ابوالقاسم كحال زاده، دیده‌ها و شنیده‌ها؛ خاطرات ابوالقاسم كحال زاده، به كوشش مرتضی كامران (تهران: البرز، 1370) ص. 150-155.

[3] اتحادیه، منصوریه.، (2535)، گوشه هایی از روابسط خارجی ایران، تهران، آگاه، ص. 36

coğrafiya kitabları, səfərnamələr, siyasi məktublar, mistik mətnlər, rəsmi yazışmalar, vəqfnamələr və xatirələri qeyd etmək olar. Bu əsərlərin hər biri bir tarixi mövzunu ehtiva edərək özünəməxsus qiymət və etibara malikdir. Sözü gedən əsərlər və mənbələr qacarlar hakimiyyətinin əvvəlinə və qacarlar dövrünün sonlarına, Nasiri dövrünə aid olmaqla iki qrupa bölünür. Dövr etibarı ilə bu iki qrup bir-birindən fərqlənsə də, hər ikisində Qacarlar hakimiyyətinin qanuniliyinin və güclü hakimiyyətə malik olduqlarının sübuta yetirilməsinə səy göstərilmiş, onların «inqilab dövründə ölkədə nizam-intizam yaratmaq, binaları təmir etmək, pisləşmiş vəziyyəti bərpa etmək, ölkəni gözəlləşdirmək, təhlükəsizlik yaratmaq, müdafiəni gücləndirmək»[1] istiqamətində böyük bir tarixi missiya yerinə yetirdikləri yazılmışdır.

Hakimiyyətlərinin ilk dövrlərində Qacarlar sülaləsinin sanki rəsmi mövqeyini tərənnüm edən bir əsər təəssüratı bağışlayan və subyektivliyi ilə seçilən «Məhəmmədi tarixi» əsərindən tutmuş reallığın olduğu kimi verilməsinə çalışan, «insaflı tarixçinin hadisələri təsvir edərkən qərəzli mövqedən çıxış etməməsi və təəssübkeşlik göstərməməsinin»[2] zəruriliyini vurğulayan «Rövzətüssəfayi Nasiri» əsərinin müəllifinin əsərlərinə qədər bütün tarix kitablarında qacarların gücü, qüdrəti, cəsarəti, zəkası, müdrikliyi, həmçinin məhbusların qorxusunu əks etdirmişdir.

Əbdürrəzzaq bəy Dünbəlinin «Məasir us-səltənə» əsəri Qacarlar sülaləsi dövründə yazılmış ilk ciddi tarixi əsəridir. Məftun təxəllüsü ilə tanınmış Dünbəli Azərbaycan alimlərindəndir. O, 1726-cı ildə Xoy şəhərində doğulmuş, gənc yaşlarında divanxanada yazı işləri ilə məşğul olmuş, maliyyə və vergi məmuru vəzifələrində çalışmışdır. Dünbəli 1827-ci ildə vəfat etmişdir. «Məasir us-səltənə» əsəri Fətəli Şah Qacarın hakimiyyət başına gəldiyi vaxtdan 1825-ci ilə qədər başa verən hadisələri əks etdirir. Mürəkkəb yazı üslubuna malik olsa da, bu əsər Qacarlar sülaləsi hakimiyyətinin ilk dövrləri ilə bağlı faydalı məlumatlara malikdir. Müəllifin o dövrün müasiri olması, dövlət idarələrində işləməsi, bu məlumatların dəyərini artırır.

Cahangir Mirzə: Cahangir Mirzə Abbas Mirzənin üçüncü oğludur. O, Əbdürrəzzaq bəy Dünbəlinin «Məasir us-səltənə» əsərini davam etdirərək

---

[1] آبراهاميان، يرواند.، 1387. ايران بين دو انقلاب (از مشروطه تا انقلاب اسلامي). ترجمة کاظم فيروزمند، حسن شمس‌آوري و محسن مديرشانه‌چي. تهران: مرکز. ص. 60.

[2] Abrahamyan Yarvənd, İran iki inqilab arasında (Məşrutədən İslam inqilabına kimi, Kazın Firuzmənd Həsən Şəmsavəri və Möhsün Müdirşanəçinin tərcüməsi, Tehran, 1387, s.193.

«Yeni tarix» adlı əsər yazmışdır. Əsər 1824-1825-ci illərdə İranda baş vermiş hadisələri əhatə edir. Əsəri «Cahangir tarixi» də adlandırmışlar. Cahangir Mirzənin əsərlərindən biri də «İksirüttəvarix»dir.

Rzaquluxan Hidayət: Rzaquluxan Hidayət Məhəmməd şah Qacarın sarayında yüksək vəzifə sahibi olmuş, Nasirəddin şah Qacarın tərbiyəsi ilə məşğul olmuşdur. O, ən mühüm fars təzkirələrdən hesab edilən «Riyazül-arifin» və «Məcməül-füsəhan» onun əsərləridir. Azərbaycan Səfəvilər dövləti dövründən Nəsrəddin şah Qacarın hakimiyyətinin əvvəllərinə qədər bir dövrü əhatə edən üç cildlik «Rövzeyi-səfaye-Naseri»ni də Rzaquluxan Hidayət yazmışdır. Rzaquluxanın şairlik istedadı da olmuşdur. «Məcməül-füsəha»da onun qəzəl və qəsidələrinə rast gəlmək olar. Rzaquluxan Hidayət 1871-ci ildə vəfat etmişdir.

Mirzə Məhəmmədsadiq Mərvəzi: Diarist (gündəlik yazan) ləqəbi ilə şöhrət tapmış Mirzə Məhəmmədsadiq Mərvəzi ilk əvvəl Fətəli Şah Qacarın sarayında katib vəzifəsində çalışmış, sonralar xronologiya yazmaqla məşğul olmuşdur. «Qacar tarixi» əsərini yazmaqla vəzifələndirilən Mərvəzi bu əsəri iki cilddə tərtib etmişdir. O, bu əsərin birinci cildini «Tarixe cahanara» adlandırmışdır. Onun digər əsəri «Fəvaidul-müluk» adlanır. Mərvəzi şahın göstərişi ilə şah taxta çıxdığı vaxtdan onun hakimiyyətinin yeddinci ilinə qədər saray şairlərinin yazdığı mədhiyyələri və qəsidələri toplamış və bu topluya «Zinətül-mədayeh» adı vermişdir.

Mirzə Məhəmmədtəqi Lisanülmülk: Sepehr təxəllüslü Mirzə Məhəmmədtəqi 1801-ci ildə (h.q.1216) Kaşanda dünyaya gəlmişdir. Onun ən məşhur olan «Nasixuttəvarix» əsəri altı cilddən ibarətdir və ümumdünya tarixinə həsr olunmuşdur. Lisanülmülkün digər əsəri doqquz cilddən ibarət olan «Qacariyyə tarixi» («Nasiri tarixi» də adlanır) əsəridir. «Nasiri tarixi»nin birinci cildi Qacarlar sülaləsinin əsasını qoyan Ağa Məhəmməd xan və Fətəli Şah Qacarların hakimiyyət illərini əhatə edir. İkinci cild Məhəmməd Şahın hakimiyyət illərini, üçüncü cildi isə Nəsrəddin Şah Qacarın hakimiyyətinin ilk on ilini əhatə edir. «Nasiri tarixi»nin yazarkən müəllif öz eşitdiklərinə, gördüklərinə, şəxsi xatirələrinə, bəzi rəsmi sənəd və yazılara əsaslanmışdır. Əslində onun bu işi tarixçilikdən çox xronologiya tərtibatı xarakteri daşımışdır. O, Şah və sədr-əzəmin göstərişi ilə yazdığı üçün mübaliğələrə, lazımsız təsvirlərə yol vermiş, yazı zamanı rəhbərlərin razılığını və digər şəxsi mülahizələri diqqət mərkəzində olmuşdur. Müəllif əksər məqamlarda reallığı yazıya almamış, hətta bəzən həqiqətləri təhrif etmişdir.

Əbu Məhəmməd Nadir Mirzə: Əbu Məhəmməd Nasiri dövrünün

alim və müəlliflərindəndir. O, bir müddət Tehranda təhsil aldıqdan sonra Təbrizə getmiş, orada Molla Mehrəlinin yanında Təbriz alim və ədiblərindən, Mollabaşı kimi tanınan Ağa Mirzə Müctəhid, onun iki oğlu Mirzə Lütfəli İmam cümə və Mirzə Cəgərdən, həmçinin Molla Mahmud Tusəcidən ərəb, fars dillərini və bu dillərin ədəbiyyatlarını öyrənmişdir. O, «Təbriz tarixi» əsərinin müəllifidir. Bu əsər Təbriz şəhərinin tarixi və coğrafiyası ilə bağlı mühüm məlumatlara malik olmaqla yanaşı, üslubiyyatına görə də Qacarlar sülaləsi dövrünün fars ədəbiyyatında mühüm yer tutmuşdur. Çox böyük diqqətlə yazılmış bu əsərdə Təbriz şəhərindəki binalar, şəhərin əhalisi, iqlimi, məhəllələri, çayları, məqbərələri, qədim binaları, tarixi abidələri, İslamın ilk dövründən 1884-cü (h.q.1302) ilə qədər baş vermiş hadisələr, müharibələr, təbii sellər, zəlzələlər, şəhərdə hakimiyyət başında olmuş şəxslər, Dünbəli tayfası, Qaraqoyunlu əmirləri, Qacar şahları, əsas sülalələr, məşhur şeyxlər, şairlər, əyanlar, əslən bu şəhərdən olan katiblər və mirzələrdən geniş şəkildə bəhs edilir.

Etimadüssəltənə: Sonralar Etimadüssəltənə ləqəbi ilə şöhrət tapmış Məhəmməd Həsən xan Səniüddövlə 1851-ci ildə (h.q.1268) təsis edilmiş Darül-fünunda təhsil almış, fransız dilini öyrənmək üçün 12 ilini sərf etmiş, idarəçilik təlimləri almışdır. Darül-fünunu qızıl medalla başa vurmuşdur. Etimadüssəltənənin yaradıcılığına aşağıdakı əsərlər daxildir:

-İran şəhərlərinin tarixi və coğrafiyasına həsr edilmiş «**Miratül-büldane Naseri**». Dörd cilddən ibarət olan bu əsər əlifba sırası ilə tərtib edilmişdir.

-Tarixe müntəzəme Naseri. Ümumi tarixə aid olan bu əsər hicrətin əvvəlindən başlayaraq 1882-ci ilə qədər (h.q.1300) olan dövrün hadisələrini əhatə edir. Bəzi mütəxəssislər bu əsəri həmin dövrdə ümumi tarixə aid farsca yazılmış sonuncu əsər sayırlar. Əsərin ilk iki cildi Kərim xanın vəfatına qədər olan dövrün (I cild-621-1258, II cild 1259-1779-cu illər) əhatə etsə də, kitabın əsas hissəsi sayılan III cild Azərbaycan Qacarları sülaləsinin hakimiyyətinin 1887-ci ilinədək olan dövrünü əks etdirir. Əsərin bu hissəsinin əsas məziyyətlərindən biri budur ki, burada təkcə Qacarlar səltənəti və digər ölkələrdə baş vermiş hadisələr barəsində deyil, həmçinin Qacarlar sarayının quruluşu, səltənətin idarəçilik üsul və formaları haqqında da məlumatlar verilir.

- Mətləüşşəms. Xorasan əyaləti haqqında olan bu əsər üç cilddən ibarətdir.

- Xeyrate Həsan. Məşhur qadınlar haqqında olan bu əsər üç cilddən ibarətdir.

- əl-Məaser vəl-asar. Əsər Nəsrəddin Şah hakimiyyəti dövründə baş verən hadisələr, həmin dövrün alimləri, görkəmli şəxsiyyətləri və elm adamlarından bəhs edir.

- Durrut-tican fə əhvali bənil-əşkan. Üç cilddən ibarət olan bu əsər əşkanilər sülaləsinin tarixindən bəhs edir.

- Ət-Tədvin fi əhvali cibaliş-şərvin. Əsər Səvadkuh dağının tarixi ilə bağlıdır.

- Huccətus-səadəti fi huccətişşəhadəti. Əsərdə 680-ci ildə (h.q. 61) baş vermiş hadisələrdən danışıldı, İmam Hüseyn (ə) və səhabələrinin şəhidlik hadisəsindən bəhs edilir.

Etimadüssəltənənin bunlardan əlavə həm tərcümə, həm də müəllif əsərləri var. «Xabnamə traktatı»nda o, bütün Qacar sultan və vəzirlərini xarakterizə edir. Bu vasitə ilə öz dövrünün dəqiq tarixi təhlilini verir. Adı çəkilən əsər Etimadüssəltənə vəfat etdikdən sonra çap edilmişdir.[1]

Mirzə Seyyid Cəfər xan Həqiqətnigan Xurmocinin «Həqayigül əxbari Nasiri» adlı əsərində isə 1867-ci ilədək Qacarlar səltənətində baş vermiş bir sıra hadisələr aydınlığı ilə əks etdirilmişdir. Müəllif bir sıra siyasi aktları (Məsələn, Əmir Kəbirin qətlini) bütün təfsilatı ilə əks etdirdiyi üçün hətta şah sarayının qınağına məruz qalmışdır.

Con Malkholmun «İran tarixi» adlı əsərində də Qacarlar səltənətində baş vermiş hadisələr London siyasi dairələrinin maraqları mövqeyindən işıqlandırılmışdır.

Qacarlar sülaləsi dövrünün bəzi hadisələri, Nasiri və Müzəffəri dövrlərinin sosial-iqtisadi və inzibati-siyasi həyatı haqqında bəzi epizodik məlumatlara Qurban Kaşaninin divanında da rast gəlmək olur.

Qacarlar dövrü İranın tarixi üzrə yazılmış əsərlər içərisində Məşrutə inqilabına (1905-1911) həsr edilmiş tədqiqatlar xüsusi yer tutur. Bu əsərlərdən danışarkən ilk növbədə Əhməd Kəsrəvinin ikicildlik «Məşrutə tarixi»ni qeyd etmək lazımdır.

Müəllif öz gənclik illərinə təsadüf etmiş 1905-1911-ci illər Məşrutə inqilabının səbəbləri, əsas hadisələrinin gedişi, ayrı-ayrı inqilab iştirakçılarının fəaliyyəti haqqında özünün tutduğu mövqe baxımından ətraflı məlumat verir. Bu əsərdə fotoların verilməsi o zamankı İran tarixşünaslığı üçün gözlənilməz yenilik sayılırdı.

Hicri tarixi ilə 1362-ci ildə Tehranda nəşr edilmiş «İranlıların oyanış

---

[1] آبراهاميان، يرواند.، 1387. ايران بين دو انقلاب (از مشروطه تا انقلاب اسلامي). ترجمة كاظم فيروزمند، حسن شمس‌آوري و محسن مديرشانه‌چي. تهران: مركز

tarixi» adlı tədqiqatın müəllifi Nizam ül-İslam Kermani özünün iki cilddə çap olunmuş altıbölümlük bu əsərində ayrı-ayrı siyasi xadimlərlə yanaşı tanınmış inqilab iştirakçılarının tərcümeyi-halları vermiş, bir çox qiymətli tarixi sənədləri öz kitabına daxil etmiş, çox sadə və rəvan dildə XIX-XX əsrin əvvəllərində Qacarlar səltənətində baş vermiş hadisələrə öz tənqidi münasibətini bildirmişdir.

Məşrutə tarixinə xeyli yazılar həsr etmiş müəlliflərdən biri də Feridun Adamiyyətdir. Xüsusən də onun ikicildlik «İran məşrutə inqilabının ideologiyası» əsəri məşrutə ərəfəsində getmiş proseslərin, məşrutə inqilabı dövründəki təşkilatçılığın səltənətdə mövcud olmuş ictimai-siyasi ab-havasının analizin tənqidi şəkildə işıqlandırılması baxımından çox maraqlı və gərəklidir.

Məşrutəçilərin məşhur nümayəndələrindən olan Ehtişamüssüəltənə və Bəhbəhani kimi şəxsiyyətlərə yaxından əməkdaşlıq edən, özü şəxsən inqilabda iştirak etmiş Məhəmmədmehdi Şərif Kasaninin «Məşrutənin tarixi hadisələri» adlı əsəri, habelə inqilab dövründə «Vətənin səsi» və «Mühakimələr» jurnallarının təsisçisi olunmuş Məscid-ül-ilsam Kasaninin çox sanballı məqalələri və bir çox mütərəqqi müəlliflərin (Mirzə Yəhya Dövlətabadi, Mehdiqulu xan Hidayət, Salar Fateh, Məscid-ül-Vaiz Tehrani, Məhəmmədbağır Vicviyyə, Kərim Talıbzadə Behzad, İsmayıl Əmirxizi, İbrahim Fəxrai, Nəsirətül-mülküm və bir çox başqaları) müxtəlif həcmli və müxtəlif yönümlü əsərləri bizi maraqlandıran mövzunun işıqlandırılması, qarşımıza qoyduğumuz elmi vəzifələrin həlli baxımından çox faydalı olmuşdur.

Mövzunun tarixşünaslığından danışarkən onun öyrənilməsində əvəzsiz rol oynamış Şimali Azərbaycan tarixşünaslıq məktəbinin xüsusi rolunu qeyd etməyə bilmərik. Sovet dönəmi və müstəqillik dövründə öz yüksək elmi səviyyələri ilə seçilən Azərbaycan tarixşünaslığı Qacarlar sülaləsi hakimiyyəti haqqında tam təsəvvür əldə etməyimizdə, ayrı-ayrı Qacarlar sülaləsi xadimlərinin roluna qiymət verməsində, Qacarlar sülaləsinin hakimiyyəti dövründə İranda, Cənubi Azərbaycanda baş vermiş bir çox sosial-iqtisadi və ictimai-siyasi proseslərə elmi yanaşmanın formalaşmasında son dərəcə mühüm rol oynamışdır. Görkəmli Azərbaycan tarixçiləri Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, S.S.Əliyarlı və başqalarnın, habelə möhtərəm elmi rəhbərim AMEA-nın həqiqi üzvü Y.M.Mahmudovun, habelə onun ardıcılları və yetirmələrinin, həmçinin tanınmış alimlər T.T.Mustafazadə, G.N.Məmmədova, K.Şükürov, C.Mustafayev, V.Umudlu və başqalarının bizim dissertasiya üçün seçilmiş mövzunun müxtəlif məqamlarına dair

araşdırmaları, o cümlədən bir çox ümumiləşdirici əsərlər (ilk növbədə «Azərbaycan tarix»ləri, «İrəvan xanlığının tarixi» və b.) olmadan bu tədqiqatı lazımi səviyyədə yazmağımız qeyri-mümkün olardı.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın başlıca mənbəşünaslıq bazasında İranda müxtəlif dövrlərdə çap olunmuş sənədlər və materiallar külliyyatları, habelə ayrı-ayrı təhsil müəssisələrinin kitabxanalarında, həmçinin mərkəzi kitabxanaların əlyazmalar fondunda saxlanılan, çox böyük əksəriyyəti fars dilində olan ilkin mənbə xarakterli sənədlər və materiallar xüsusi yer tutur. Bu baxımdan Tehran və Təbriz şəhər kitabxanalarını xüsusi qeyd etmək lazımdır. Bu kitabxanaların fondlarında saxlanılmış ilkin qaynaqlar Qacarların hakimiyyətə gəlişi, bu sülalənin hakimiyyəti dövründə səltənətin daxili və beynəlxalq həyatı, Qacarların daxili və xarici siyasəti, ölkədə baş vermiş sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni proseslər haqqında bitkin təsəvvürlərin yaranmasında mühüm rol oynamışdır.

Belə ilkin mənbələr içərisində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin xətti ilə saxlanılan və ya nəşr edilmiş sənəd və materiallar çox böyük əhəmiyyətə malikdir. Ayrı-ayrı müəlliflər tərəfindən İranda müxtəlif dövrlərdə çap etdirilmiş sənədlər külliyyatları da bu dissertasiyanın yazılmasında geniş istifadə olunmuşdur.

Qacarlar İran mətbuatı, xüsusən də məşrutə dövrü mətbuatının səhifələrində işıq üzü görmüş materiallar da tədqiqatımızın söykəndiyi mühüm mənbələr qatını təşkil edir.

Anri Piter, Əhməd Tacbəxş, Əbülqasim Tahiri, Fatimə Qazihə, Nəsir Seyyide Təqi və bir çox başqalarının müxtəlif əsərlərində özünə yer tapmış sənədlər də bizim üçün qiymətli qaynaq rolunu oynamışdır.

Tədqiqatın mənbəşünaslıq bazasından danışarkən Azərbaycan Respublikasının müxtəlif elmi müəssisələri – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı Dövlət Universiteti və b. tərəfindən hazırlanıb çap etdirilmiş sənədlər və materiallar külliyyatlarının xatırlamaya bilmərəm. Elə AMEA-nın həqiqi üzvü Y.M.Mahmudov və professor K.Şükürovun nəşr etdirdikləri sənədlər və materiallar bizim işimizin bir çox məqamlarını araşdırmaq baxımından son dərəcə qiymətli olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyada qarşıya qoyduğumuz əsas elmi məqsəd XVII əsrin lap sonlarından Qacarlar sülaləsinin hakimiyyətinin sonlarınadək İranın sosial-iqtisadi, inzibati-siyasi və mənəvi-mədəni tarixinin ümumi mənzərəsini yaratmaqdır. Bu məqsəddən çıxış

edərək aşağıdakı konkret vəzifələri həllinə cəhd göstərilmişdir

- Azərbaycan Qacarlar sülaləsinin mənşəyinin araşdırılması;
- Azərbaycan Qacarlar sülaləsinin hakimiyyəti illərində dövlət idarəçilik strukturlarının formalaşmasının təkamülünün tədqiq olunması;
- Qacarlar sülaləsi dövründə İranın iqtisadi-həyatının, vəziyyətinin işıqlandırılması;
- Qacarlar səltənətində hüquqi-siyasi həyatın təhlil olunması;
- Siyasi, inzibati, hüquqi, iqtisadi və hərbi sahədə həyata keçirilmiş islahatların dəyərləndirilməsi;
- Qacarlar sülaləsinin xarici siyasətinin ümumi xüsusiyyətlərinin səciyyələndirilməsi;
- Qərb və Şərq ölkələrinə münasibətdə yürüdülmüş Qacarlar siyasətinin başlıca özəlliklərinin müəyyənləşdirilməsi və bu siyasətin nəticələrinin qiymətləndirilməsi;
- Qacarlar sülaləsinin hakimiyyəti dövründə İranın mədəni həyatının ümumi mənzərəsinin yaradılması;
- 1905-1911-ci illər Məşrutə inqilabının səbəbləri, gedişi və nəticələrinin dəyərləndirilməsi;
- Qacarlar sülaləsinin süqutu və bunun başlıca səbəblərinin araşdırılması.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiq olunan əsərdə ənənəvi elmi, məntiqi və konkret tarixi (tarixi genetik, tarixi-müqayisəli və tarixi-tipoloji) metodlarla yanaşı, yuxarıda göstərilən yeni elmi yanaşmalara da müəyyən mənada müraciət edilmiş, öyrənilən hadisələrin tarixi, siyasi planlarda təhlilinə səylər göstərilmişdir. Dissertasiya işi müxtəlif tarixi hadisələrin baş verdiyi mürəkkəb və uzun bir dövrü əhatə etdiyinə görə, həmin hadisələrin daha çox siyasi təhlilinə yer ayrılmışdır.

**Tədqiqatın elmi yeniliyi:** «İran Qacarların hakimiyyəti dövründə» mövzusunda dissertasiya müasir Azərbaycan milli tarixşünaslığında Qacarların hakimiyyəti dövründə İranın sosial-iqtisadi, inzibati-siyasi və mənəvi-mədəni tarixini ümumi, küll halında əks etdirən ilk tədqiqat əsəridir. Bu əsərdə əsasən farsdilli qaynaqlara və ədəbiyyata əsaslanaraq aşağıdakı problemlərə aydınlıq gətirilmişdir:

- Azərbaycan Qacarlar sülaləsinin mənşəyi tədqiq olunmuşdur.
- Azərbaycan Qacarlar sülaləsi hakimiyyəti illərində dövlət idarəçilik strukturlarının formalaşmasının təkamülü tədqiq olunmuşdur;
- Qacarlar sülaləsinin hakimiyyəti dövründə İranın iqtisadi həyatının

durumu işıqlandırılmışdır;
- Qacarlar səltənətində hüquqi-siyasi həyatı təhlil olunmuşdur;
- Siyasi, inzibati, hüquqi, iqtisadi və hərbi sahədə həyata keçirilmiş islahatlar dəyərləndirilmişdir;
- Qacarlar sülaləsinin xarici siyasətinin ümumi xüsusiyyətləri səciyyələndirilmişdir;
- Qərb və Şərq ölkələrinə münasibətdə yürüdülmüş Qacarlar sülaləsi siyasətinin başlıca özəllikləri müəyyənləşdirilmiş və bu siyasətin nəticələri qiymətləndirilmişdir;
- Qacarlar sülaləsi hakimiyyəti dövründə İranın mədəni həyatının ümumi mənzərəsi yaradılmışdır;
- 1905-1911-ci illər Məşrutə inqilabının səbəbləri, gedişi və nəticələri dəyərləndirilmişdir;
- Azərbaycan Qacarlar sülaləsinin süqutu və bunun başlıca səbəbləri araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqat nəticəsində əldə edilən nəticələrdən Azərbaycan, İran, Şərq və dünya tarixi üzrə ümumiləşdirici əsərlərin yazılmasında, orta, orta ixtisas və ali məktəblər üçün dərsliklərin tərtibində, ali və orta ixtisas məktəblərinin ictimai ixtisaslar üzrə fakültələrində xüsusi kurs və xüsusi seminarların keçirilməsində, mühazirə kurslarının hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işi həmin şöbədə iki dəfə müzakirə edilərək Dissertasiya Şurasında müdafiəyə buraxılmışdır. Dissertasiyanın əsas elmi müddəaları müəllifin Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyasında nəşr olunan mötəbər elmi jurnallarda çapdan çıxmış 6 məqaləsində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. İstifadə olunmuş ədəbiyyat Azərbaycan, türk, rus, ingilis, ərəb, fars dilləri və veb-saytlar üzrə qruplaşdırılaraq müvafiq sıra sayı ilə verilmişdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi müəyyənləşdirilmiş, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin **I fəsli «Qacarların daxili siyasəti» adlanır və dörd yarımfəsildən ibarətdir**. I yarımfəsildə Qacarlar xanədanının və sülaləsinin mənşəyinə nəzər salınır. Müəllif bir sıra, o cümlədən farsdilli qaynaqlar əsasında bu sülalənin sırf Azərbaycan sülaləsi olduğunu inandırıcı şəkildə sübut edir.

**«Qacarların mənşəyi»** adlanan bu yarımfəsildə Qacarlar sülaləsinin mənşəyi çox ətraflı şəkildə təhlil olunur. Əsərdə göstərilir ki, Qacarlar mənşəcə Qafqazda məskunlaşmış Salur tayfasındandırlar. Bu tayfanın müəyyən hissəsi XIII əsrdə İran ərazisində, XIV əsrdə isə Cənubi Qafqazda, Azərbaycanın şimal torpaqlarında məskunlaşmış digər türk tayfaları ilə birlikdə köçürülmüşlər. Qərbi türk dilində danışan bu tayfanı Səfəvilər Azərbaycandan Mazandarana və Qorqana köçürmüşlər. Dr. Moinin lüğətində «qaçar» sözünün türk dilində «iti», «qaçar» mənası verdiyi göstərilmişdir. «Qacar» sözü «meşə döyüşçüsü» mənasını verən «qaçır» sözündəndir. «Qacar» türkcə «çevik» mənasını verən «qaçar» sözündəndir. Dr. Moin Qacarların mənşəyi ilə bağlı belə yazırdı: «Türkman tayfası olan Qacarlar Moğol sərkərdələrindən olan Qacarnuyanın nəslindəndir. Elxanilər dövləti süquta uğradıqdan sonra bu tayfa mənsubları Suriya və Şam ərazilərində məskunlaşdılar. Digər türk tayfaları kimi qacarlar da əsasən maldarlıqla məşğul idilər. Əmir Teymur 1400-cü ildə Kiçik Asiyaya və Şama yürüş etdikdən sonra yenidən İrana qayıtdı. Əmir Teymur qayıdarkən Şam, Şərqi Anadolu və Kiçik Asiyada məskunlaşmış türkləri özü ilə birlikdə İrana gətirdi. Həmin tayfalar arasında rumlu, şamlu və qacar tayfaları da var idi. Qacarlar tayfalarının bir hissəsi Türküstana qayıtdı, bir hissəsi isə Gəncə, İrəvan şəhərlərində və Qarabağda məskunlaşdı. Şah I İsmayıl hakimiyyətinin ilk dövründə Lahicandan Azərbaycana gələrkən atasının müridləri, o cümlədən Qacar tayfasının bir neçə başçısı ona qoşuldu. Onlar Səfəvilərin qızılbaş zümrəsinə aid edildilər.Azərbaycan Səfəvi sülaləsinin hakimiyyəti illərində Qacarlar yüksək məqam və mənsəb sahibləri olmuşlar. Şah I Abbas bu tayfanı üç qrupa bölmüşdü. O, türkman və özbək hücumlarının qarşısını almaq üçün bir dəstəni Mərvə və

Xorasanın şimal ərazilərinə göndərdi. Şah ləzgi tayfalarının hücumlarına mane olmaq üçün ikinci dəstəni Qarabağa və Arazın şimal sahillərinə göndərdi. Üçüncü dəstəni isə Qorqanda (Astrabad) məskunlaşdırdı. Üçüncü dəstə Azərbaycan Səfəvilər sülaləsi hakimiyyətinin son illərində gücləndi və Qacarlar sülaləsinin əsasını qoydu...» Yarımfəsildə həmçinin Mahmud Tolui, Piter Averi[1] və b. müəlliflərin Qacarlar sülaləsi haqqında yürütdüyü fikirlər təhlil olunmuşdur.

Fəslin II yarımfəsli **«Qacarlar sülaləsi hökumətinin strukturu və hökumət forması»** adlanır. Yarımfəsildə Qacar İran dövlətinin idarə sistemindən bəhs olunur və bəzi mənbələrin təhlili verilir. Qacar İran dövlətinin idarə sistemi Azərbaycan Səfəvi dövlətinin idari sisteminə əsaslanırdı, dövlət inkişaf etdikcə bu sistemdə dəyişiklik və inkişaf baş verirdi. Siyasi iqtidarın zəndlərdən qacarlara keçməsi ilə idarə rəhbərləri öz vəzifələri ilə birlikdə yeni hökumətin idarə sisteminə daxil oldular. Bu fərdlərin çoxu öz vəzifələrini yeni siyasi sistemdə davam etdirərək yeni sistemin idarə heyətinə daxil oldular. Bu keçmə hətta hökumətin yüksək dairələrində də, habelə sədri-əzəm səviyyəsində də baş verdi. Qeyd olunan proses özünü aşağı dairələrdə, əyalət və vilayət səviyyələrində daha qabarıq şəkildə göstərirdi. Vəzifə sahibləri, xüsusilə mərkəzdən kənarda, öz vəzifələrində qalmışdılar. Ağa Məhəmməd Şah Qacarın müharibələri ona idarə sistemində dəyişikliklər və islahatlar aparmağa imkan vermədi. Ağa Məhəmməd Şah Qacar 1797-ci ildə öldürüldükdən sonra Fətəli Şah Qacar hökumətini sabitləşdirmək, əvvəlki sülalələrdən miras qalmış idarə sistemlərinə əsaslanaraq, həmçinin idarəçilik təcrübəsi olmuş adamlarla müzakirələr aparmaqla Qacar dövlətinin idarə sisteminin əsasını qoymaq imkanı əldə etdi. Fətəli Şah 1806-cı ildə (h.q.1221) dövlətin idarə sistemini dəyişir və özünün yeni hökumət sisteminin bir sədri-əzəm, üç vəzir (mustofiyol-məmalik-bütün məmləkətlərin vergi işlərinin rəhbəri, monşiyol-məmalik-yazı və sənədlər üzrə rəhbər, ordu naziri) əsasında təşkil etdi. Sədri-əzəm baş nazir hesab edilirdi, digər üç nazir isə öz fəaliyyətlərində ona tabe idilər. Vəzirlər xırda işlərdə özləri müstəqil şəkildə fəaliyyət göstərsələr də, bütün hallarda sədri-əzəmin rəyinə əsasən hərəkət edirdilər .

Fəslin III yarımfəsli **«Qacarların iqtisadi fəaliyyəti»** adlanır.

---

[1] Peter Avery, The Cambridge History of Iran, Volum 7, Cambridge University Press, p512; Elyor Bast, İranda almanlar. Hüseyn Bəni Əhmədin tərcüməsi, Tehran, Şirazə, s. 177 və sonra; Calabrese, John .1998. Turkey and Iran, Limits of a stable relationships, British: Journal of Middle Eastern Studies, vol, 25.N 1.

Adından da göründüyü kimi, bu yarımfəsildə qacarlar iqtisadiyyatı ənənəvi əkinçilik, kustar sənaye və xalçaçılığa, məhdud xarici ticarətə və heyvandarlığı əsaslanan bir ölkənin varisləri idilər. Bu iqtisadi sahələr keçmiş dövlətlərin maliyyə mənbələrini təmin edə bilsə də, qacarlar dövründə dünya iqtisadiyyatında baş verən dəyişikliklər, bazar iqtisadiyyatı və Qərb kapitalizminin inkişafı[1] və onun özünü İranda əmtəə və kapital şəklində göstərməsi səbəbilə əvvəlki məhsuldarlığını itirmişdi, dünya iqtisadiyyatında baş verən dəyişiklik və inkişaf nəticəsində süquta uğramışdı[2]. Bu dövrdə Hacı Əminüzzərib, Talıbov Təbrizi, Mirzə Mülküm xan Marağayi və Qobinov kimi siyasi xadimlər İran iqtisadiyyatının inkişafında mühüm rol oynadılar.

I fəslin sonuncu IV yarımfəsli **«Qacarlar dövründə siyasi və qanunvericilik strukturları»** adlanır. Bu yarımfəsildə Səfəvilər dövründən qalmış müxtəlif siyasi institutların qısa xarakteri verildikdən sonra Qacarlar səltənətinin idarəçilik sistemində təşəkkül tapmış ayrı-ayrı idarə və bölmələrin fəaliyyətinin dəyərləndirilməsinə cəhd göstərilir. Müəllif qeyd edir ki, Qacarlar xanədanı İran və bir sıra qonşu ölkələrdə müntəzəm ictimai asayiş mühafizəsinin bünövrəsini qoymuş ilk dövlət olmuşdur. Dissertant haqlı olaraq qeyd edir ki, hətta İranın çağdaş polis sisteminin tarixi Qacarların Nasiri dövrünün əvvəllərindən başlayır. Nəsrəddin şah Qacar, sədrəzəm Mirzə Tağı xan Əmiri Kəbir xanədanda təhlükəsizlik sisteminin yaradılması sahəsində də xeyli iş görmüşdülər. Yarımfəsildə həmçinin ayrı-ayrı siyasi strukturlara müxtəlif dövrlərdə rəhbərlik etmiş irimənsəbli məmurların fəaliyyətinə də geniş diqqət yetirilmişdir.

Dissertasiya işinin II fəsli **«Qacarların xarici siyasəti»** adlanır. Fəsil dörd yarımfəsildən ibarətdir. I yarımfəsil **«Qacarlar və Qərb dövlətləri»** adlanır**.** Yarımfəsildə qeyd edilir ki, XIX əsrin əvvəllərində Fətəli şahın Fransaya meyl göstərməsinin səbəblərindən biri Rusiyanın Qafqaza və İranın şimalına etdiyi hücumlar olmuşdur. O, Rusiya qarşısında özünə daha güclü bir müttəfiq tapmaq niyyətində idi. Həmin ərəfədə Napoleonun Avropadakı fəthləri, xüsusilə Misri və İtaliyanı fəth etməsi Fətəli şahın diqqətini cəlb edirdi. O, Fransa ilə birlik yaratmaq məqsədilə 1809-cu ildə Napoleona bir məktub yazmışdı. Məktub Fransanın Osmanlı dövlətindəki səfiri tərəfindən fransızcaya tərcümə edildi və Napoleonun sarayına gön-

---

[1] Təbəri Nağı. Məşrutə hərəkatında açar qruplar və neftin milliləşməsi, Baqirül-ülum Universitetinin siyasi elmlər nəşriyyatı, say 16, s. 229-244.

[2] Şahidi Müzəffər. İranın borcları və onun nəticələri. Müasir İran tarixi məqalələri məcmuəsi. Onuncu kitab, Tehran 1375, s. 34

dərildi. Napoleon məktubu qaldıqdan sonra İranın vəziyyəti ilə daha yaxından tanış olmaq məqsədilə öncə Joberi (saray katibini), sonra Romionu (xüsusi yavərini) İrana göndərdi. İran səfiri Finkenşteyn düşərgəsində Napoleonla görüşür və 1807-ci ildə imperatorla bir giriş, 16 maddədən ibarət olan bir müqavilə bağlayır. Müqavilənin zahiri Fətəli Şahı məmnun edir. Lakin bir il sonra, yəni Napoleonla Rusiya çarının görüşündən və Tilzit müqaviləsindən sonra Napoleonun İran siyasəti tamamilə dəyişdi.

Qacarlar səltənəti yaxşı başa düşürdü ki, Yaxın Şərq problemlərinin çözülməsində Böyük Britaniya çox güclü imkanlara malikdir. Hələ Azərbaycan Səfəvilər dövləti dövründən İngiltərə ilə əlaqələr yaradılmışdı, İngiltərə hərbi gəmiləri (1587-1629) I Şah Abbas zamanında Hörmüz adasını almaqda, portuqallarla müharibədə Səfəvilərə yardım göstərmişdi.[1] Lakin İranın Avropa dövlətləri ilə sistemli əlaqələri Fətəli Şahın dövründən başlanır. Böyük Britaniya Hindistan müstəmləkəsinə çox böyük önəm verdiyi üçün həmin müstəmləkə ilə qonşu olan dövlətlərlə, xüsusilə əlverişli coğrafi mövqeyə, Hindistana çıxış yoluna malik olan, Qərbi Asiya dövlətləri arasında daha güclü və daha qüdrətli dövlət sayılan Qacarlar İranını diqqət mərkəzində saxlayır, dostluq əlaqələrini davam etdirirdi[2]. Bu bölümdə İran və Rusiya münasibətlərinin bu iki ölkə arasında baş verən müharibələr kontekstindən araşdırılması daha çox diqqət çəkən məqamlardandır. Bu iki ölkə arasında baş verən müharibələrin birinci mərhələsi 1804-1813-cü illəri (h.q.1219-1228) əhatə edir. Bu mərhələ Gülüstan müqaviləsi ilə nəticələnmişdi. Müharibələrin ikinci mərhələsi 1826-cı ildən 1828-ci (h.q.1243) ilə qədər davam etmiş və Türkmənçay müqaviləsi ilə başa çatmışdır. Qacarlar İran və çar Rusiyası müharibələrinin birinci dövründə(1804-1813) I Pyotrun Rusiya imperiyasının isti dənizlərə çıxması planına əsaslanan strategiyası çar Rusiyasının Cənub istiqamətinə göz dikməsinə və Cənubi Qafqaza, habelə Qacarlar səltənətinə təcavüz etməsinə səbəb oldu. Cənubi Qafqaz regionu Romanovlar və Qacarlar sülaləsi arasında münaqişə zonasına çevrildi. Rusiyanın müstəmləkəçi siyasətinin çox qaba, hərbi yollarla reallaşdırılması, öz hakimiyyətlərini hansı yollarla olursa – olsun qoruyub saxlamaq niyyəti ilə siyasi-diplomatik manevrlər edən, bir neçəsi çıxılmaqla qalan xanlıqlar işğalçı qarşısında müstəqilliyini

---

[1] Mahmud Mahmud. XIX əsrdə İran və İngiltərənin siyasi münasibətlər tarixi, Tehran, 1353.

[2] Edmon Ayronsayd, Genral Ayronsaydın xatirə və səfərnamələri, Behruz Qəzvininin tərcüməsi, Tehran, Ayine, 1363, 52 s.

qorumaq əzmində idilər. Şimal ayısı təhlükəsi önündə ən real və doğma dayaq, qanı bir, dili bir olan Qacarlar səltənəti idi. Qacarlar İran və çar Rusiyası müharibələrinin ikinci dövrü də burada geniş şəkildə işıqlandırılmışdır. Rusiyanın çar hökuməti 1813-cü il Gülüstan müqaviləsindən razı göründüyü halda, müqavilədə Qacarlar İranı sarayına diktə edilmiş utancverici şərtlər açıq şəkildə hiss edilirdi. Buna görə də Fətəli Şah itirilmiş vilayətlərin çar Rusiyasından geri alınması ilə bağlı müzakirələr aparmaq üçün Hacı Mirzə Əbülhəsən xan Şirazini Rusiya çarının sarayına göndərmək qərarına gəldi. Rusiya çarı Qacarlar İranının iddialarını dinlədikdən sonra «bu regionların hakimləri çar Rusiya hakimiyyətini öz istəkləri ilə qəbul ediblər» deyə cavab verərək İranın tələblərinə rədd cavabı verdi. Sonra Rusiya çarı öz səfirini Qacarlar İran səfiri ilə birlikdə Tehrana göndərdi (1818/h.q.1232). Rusiyanın təkliflərinin heç biri Qacarlar İranı tərəfindən müsbət qarşılanmadı və Qacarlar sarayından bu təkliflərin hər birinə müəmmalı və yayğın cavablar verildi. Buna görə də çar Rusiyası səfiri Qacarlar İranından əliboş qayıtdı. Ruslar on üç ildən sonra, yəni 1826-cı ildə (h.q.1241) əməli olaraq Gülüstan müqaviləsinin şərtlərini pozdular. Bununla da çar Rusiyası ilə Qacarlar İranı arasında müharibələrin ikinci dövrü başladı. Bu müharibələr sonda 1828-ci il Türkmənçay müqaviləsi ilə başa çatdı.[1]

**Fəslin II yarımfəsli «Qacarlar və İslam dövlətləri (Osmanlı)»** adlanır. Yarımfəsildə Qacarlar dövründə İranla Osmanlı dövləti arasında baş verən ərazi münaqişələrindən bəhs olunur. Osmanlı və İranda konstitusiya inqilablarının baş verməsi bu dövlətlərdə yeni hökumətlərin yaradılması və siyasi-mədəni sahədə milli maraqların qorunması üçün bir başlanğıc oldu. Bu cür baxış bu dövlətlərin xarici siyasətlərini, milli və beynəlxalq münasibətlərini dəyişdi. Bu dövrdə millətpərəstlik, vətən, milli maraqlar, yaxşı qonşuluq, müqavilələr bağlanması, regional əməkdaşlıq kimi anlayışlar Osmanlı dövləti ilə Qacarlar İranının münasibətlərinin maraq ortaqlığı kimi tanındı. Amma ənənə meyarının qütbləşməsi fikirlərin əməli sirayətinə mane oldu. Ənənəvi anlayışlardan yeni Avropa ideologiyasına keçid çox gec baş verirdi və ənənəvi anlayışlar ümumilikdə hakimiyyətin siyasi fəlsəfəsi, hətta hökumətin xarici əlaqələr səviyyəsindəki icra orqanları ilə müqayisədə daha üstün hesab edilirdi.[2]

---

[1] A.U.Simyonoviç, Türkmənçay müqaviləsindən Herat müharibəsinə kimi Vəzir Muxtarın xatirələri , Yəhya Aryanpurun tərcüməsi, Tehran, Pəyam, 1353, 75 s.

[2] Rəhimzadə Səfəvi, Əhməd Şahın süqutunun sirləri, Bəhmən Dehqanın redaktəsi

Bu dövrdə Qacarlar İranı və Osmanlı dövləti arasındakı münasibətlərdə ixtilaflar və gərginliklərin olmasına baxmayaraq dövlətlərin rəsmi münasibətləri qorunub saxlanıldı və ya Azərbaycan Səfəvi və Nadir Şah Əfşarın dövründə olduğu kimi qarşıdurma və müharibə ilə nəticələnən düşmənçilik səviyyəsinə çatmadı. Abbas Mirzənin ordusu tərəfindən Bəyazid şəhərinin işğalı ilə nəticələnən Torpaqqala müharibəsi XIX əsrin əvvəllərində Qacarlar İranı ilə Osmanlı dövləti arasında baş vermiş sonuncu iri-miqyaslı müharibə idi. Bu müharibə I Ərzurum müqaviləsinin imzalanması ilə başa çatdı. I Ərzurum müqaviləsi Qacarlar İranı və Osmanlı dövləti münasibətlərində yeni bir səhifə açdı.

Fəslin III yarımfəsli **«Qacarlar dövrünün müqavilələri»** adlanır. Burada 1813-cü il Gülüstan müqaviləsi və bu müqaviləyə gətirib çıxaran amillər, bu qeyri-bərabər müqavilənin nəticələri, 1828-ci il Türkmənçay sülh müqaviləsi, Qacarlar İranı və İngiltərə müqaviləsi, Paris müqaviləsi geniş şəkildə təhlil edilmişdir. Belə ki, Qacarlar İranı və çar Rusiyası müharibələrinin I dövrünün sonuncu mərhələsində müharibə cəbhələrində çox ciddi dəyişikliklər olmuşdu. 1813-cü il Gülüstan müqaviləsi ilə Qacarlar İranı və çar Rusiyasının onillik müharibəsi başa çatdı. Müqavilənin ikinci və üçüncü[1] maddələrinə əsasən Şimali Azərbaycanın Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Bakı və Lənkəran xanlığının bir hissəsi, Dağıstan və Gürcüstanla birlikdə, Şörəyel, Loru, Pəmbək, Borçalı ı torpaqları çar Rusiyası tərəfindən işğal olundu. 1813-cü ildə (h.q.1228) lGülüstan müqaviləsi bağlandıqdan sonra iki ölkə arasındakı sərhəd mübahisələri tam həll edilmədiyi üçün 1826-cı ilə (1241 h.q.) ilə bəzən çar Rusiyasının qüvvələri Qacarlar İranının ərazilərinə soxulurdu. Çar Rusiyası bu təcavüzləri zamanı Şimali Azərbaycanın Göyçə mahalını işğal etmişdi. Çar Rusiyasının təcavüzlərinə cavab vermək üçün ölkə rəhbərliyi müharibə etmək qərarın gəldi, nəticədə iki ölkə arasında müharibə yenidən başladı və 1828-ci ilə qədər (h.q.1243) davam etdi. Ardıcıl məğlubiyyətlərdən sonra həmin ilin fevral ayı Fətəli şah və Abbas Mirzə Türkmənçay

---

ilə, Tehran: Firdovs, 1368, s. 312

[1] İran Qarabağ və Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan, Gürcüstan (Şörəyel əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.

müqaviləsini bağlamaq və ağır şərtləri qəbul etmək məcburiyyətində qaldılar. Bu müqaviləyə əsasən Şimali Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının əraziləri çar Rusiyasına verildi və müharibədə dəymiş ziyanın ödənilməsi üçün İran Rusiya 10 kurur ödədi. İki ölkənin sərhədləri Araz çayı təyin edildi. Xəzər dənizində yalnız Rusiya imperiyasının hərbi gəmilərinin üzməsinə icazə verildi. Qacarlar dövləti müharibələr dövründə öz məmləkətlərinə xəyanət etmiş erməni təbəələrinin Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan köçürülməsinə mane olmamalı, Qacarlar İranının şimalında çar Rusiyasını konsulluğunun açılmasına razılıq verməli idi. Əvəzində Rusiya dövləti Abbas Mirzə və övladlarının İran taxt-tacına hüququ çatdığını rəsmən qəbul etdi. Bununla da Abbas Mirzə digər Qacar sülaləsi üzvlərindən fərqli olaraq Rusiya imperiyası tərəfindən himayə edilmə imtiyazı qazandı.

Digər əhəmiyyətli müqavilələrdən biri də Qacarlar İranı və İngiltərə arasında imzalanmış müqavilə idi. Ser Qor Ouzlinin vasitəçiliyi ilə imzalanmış bu 1814-cü il müqaviləsi dissertasiyada geniş təhlil olunur. Mənbələr əsasında sübut edilir ki, həmin müqavilə başlıca olaraq Böyük Britaniyanın mənafelərinə xidmət edirdi. London hökumətinin əsas məqsədi Qacarlar İranda təkcə siyasi səciyyə daşımırdı, onun məqsədi İranda siyasi və ticari məqsədlərə nail olmaq idi. Buna görə də İranı elə bir müqavilə bağlamağa vadar etmək lazım idi ki, həmin müqaviləyə əsasən ilk öncə çar Rusiyasının təhdidi azalsın, digər tərəfdən İngiltərə Əfqanıstan tərəfdən arxayın olsun və İranın bu ölkə üzərindəki hakimiyyəti sabitləşsin. Buna görə də 1814-ü ildə (h.q. 1229) Qacarlar İranı İngiltərə arasında uzun bir giriş və on bir fəsildən ibarət bir müqavilə bağlandı.

**Fəslin IV yarımfəsli «Qacarlar dövründə əcnəbilərə verilmiş imtiyazlar»** adlanır. Bu yarımfəsildə əcnəbilərə verilmiş «Teleqraf imtiyazı»ndan, «Röyter imtiyazı»ndan, «Şahənşahlıq bankı imtiyaz»ndan, «Lotoreya imtiyazı»ndan, «Tənbəki imtiyazı»ndan, «Karun çayında gəmiçilik imtiyazı»ndan, «Dalki neft imtiyazı» və digər imtiyazlardan söhbət açılaraq bu imtiyazların müsbət və mənfi cəhətləri təhlil olunmuşdur. Nəsrəddin şahın hakimiyyəti dövründə ingilislərə yeddi böyük imtiyaz verilmişdi: teleqraf imtiyazı (1862), Röyter imtiyazı (1872), Karun üzərində gəmiçilik imtiyazı (1888), Şahənşahlıq bankı imtiyazı (1889), lotoreya imtiyazı (1889), Tütün və tənbəki inhisarı imtiyazı müqaviləsi (1889), neftə mədənlərindən neftçıxarma imtiyazı (1901)[1].

[1] Mahmud Mahmud. İran və İngiltərənin siyasi əlaqələr tarixi, II cild, İqbal

Maraqlı imtiyazlardan biri Röyter imtiyazı idi. Bu imtiyaz Nəsrəddin şahın zamanında (1872) dövrün sədr-əzəmi Mirzə Hüseyn xan Sepəhsaların səyi və Mirzə Mülküm xanın əməkdaşlığı ilə Röyterdə Baron Culios adlı bir yəhudiyə verilmişdi. Röyter müqaviləsinə əsasən Dəmir yolu, tramvay yolu çəkmək, qızıl, gümüş və qiymətli daşlar istisna olmaqla Qacarlar İranının bütün mədən və ehtiyatlarından faydalanmaq, həmçinin meşələrdən faydalanma, suvarma kanalları və arxlarının salınması yeddi il müddətinə, gömrüklər idarəsi, bütün növ ingilis məhsullarının İrana ixracat haqqı iyirmi beş il müddətinə Röyterə verildi. Qarşılığında Röyter Nəsrəddin şahın Avropaya səfərinin xərclərini borc şəklində təmin etmək üçün iki yüz min lirə ödədi.[1]

**Dissertasiya işinin III fəsli «Qacarlar dövründə mədəniyyət»** adlanır. Bu fəsildə elmlər və alimlərdən, xəttatlıqdan, rəssamlıqdan, fotoqrafiya və fotoqraflardan, din və dil mənşəyindən söhbət açılır. Bu fəslin ilk yarımfəsli **«Dil və ədəbiyyat»** adlanır. Qacarlar Azərbaycan dövlətinin banisi Ağa Məhəmməd xan Qacar 1788-ci ildə Tehran şəhərini paytaxt etmək qərarına gəlmişdir. Bu seçimin məqsədi Tehranın Əfşar elinin mərkəzlərindən biri olan Savuçbulağa və Azərbaycan Qacar və türk elinin Xorasanda məskunlaşdığı və Ağaməhəmməd xanın qüvvələrinin mərkəzi olan Astrabada yaxın olması idi. Tehran paytaxt edilərkən əhalisinin sayı iyirmi mindən bir qədər artıq idi. Əhalinin əksəriyyəti türk, az hissəsi fars idi. Paytaxt olduqdan sonra çox qısa müddət ərzində qacar, əfşar, xələc, şahsevən və sair türk tayfaları, ordu və silahlı qüvvələrin mənsubları Tehranda məskunlaşdılar. Bu da Qacarlar sülaləsi dövründə Tehran sarayının davamlı və əməli olaraq Azərbaycan səciyyəsi və türk rəngi almasına səbəb oldu. İranın tarixi hadisələri arasında, xüsusilə son dövrün tarixi hadisələri arasında məşrutə siyasi-ictimai hərəkatı digər tarixi hadisələrlə müqayisədə ədəbiyyatı daha çox dəyişdirən hadisə olmuşdur. Bu dəyişiklik hətta daha öncə İran poeziyasında dəyişiklik yaratmış «ədəbi qayıdış» hərəkatında müşahidə edilməmişdir. Ümumilikdə demək olar ki, İran nəsri tarix boyu şeirlə müqayisədə daha az dəyişikliyə uğramışdır. Qacarlar dövrünün ilk vaxtlarının tarixçiləri o cümlədən Fazil xan Gorusi, Əbdürrəzzaq bəy Dünbəli, Mirzə İsa Qaim Məqam Fərahani və sair kimi

---

nəşriyyatı, yay, 1367, s.601.

[1] Əminüddövlənin siyasi xatirələri, s.22, 34, Etimadüssəltənə, Xassə kitabı, s.86, Bamdad, İranın görkəmli şəxsiyyətləri, s.407-411. Fərhad Mötəməd, Böyük Sepəhsalar, s.1.

tarixçilər öz yazılarında sadələşdirmə aparmağa çalışsalar da, əvvəlki yazı üslubundan çıxmamış, bu və ya digər şəkildə əvvəlki yazı üslubunu davam etdirmişlər. Buna baxmayaraq, zəndlər və qacarların hakimiyyətə gəldiyi dövrün ilk illərində nəsr formasında cüzi də olsa islahatlar aparılmışdır. Nəsr formasının, xüsusilə siyasi vəzifələr, rəsmi məktublaşmalar, tarixçilik və avtobioqrafiyalar çərçivəsi ilə məhdudlaşan məktub formalarının əsas vəzifəsi yeni fikir və düşüncələrin vəznli sözlər şəklində ifadə edilməsinə, yazıçının daxili hisləri həyat və mühit təsirlərini izhar etməyə etməyə imkan vermirdi[1].

**Bu fəslin II yarımfəsli «Elmi dil və üslubiyyat» adlanır.** Bu bölümdə Qacarlar İranının elmində və kitabşünaslığında baş vermiş dəyişikliklərə toxunulur. Avropa elminin Qacarlar səltənətinin mədəni həyatına nüfuzunun yolları və bu nüfuzun nəticələri nəzərdən keçirilir.

**Fəslin III yarımfəsli «Çap işi» adlanır**. Bu mətndə Qacarlar səltənətində mətbəə və nəşriyyat işlərinin təşəkkülündən, çap içinin inkişafı ilə xəttatlıq sənətinin tədricən tənəzzülündən söhbət açılır.

Fəslin IV yarımfəslində ayrı-ayrı elm sahələrindən, bu sahələrin nümayəndələrindən söhbət açılır. Fəslin sonuncu yarımfəslində müxtəlif incəsənət sahələrindən - rəssamlıq, foto işi, həkkaklıq və başqa sahələrin durumu işıqlandırılır.

**Dissertasiya işinin IV fəsli 1905-ci il«Məşrutə dövrü və Qacarlar sülaləsinin süqutu» adlanır**. Fəsil dörd yarımfəsildən ibarətdir. İlk yarımfəsil «Məşrutə dövründə İranın siyasi-iqtisadi vəziyyəti» adlanır. İran və dünya tarixində Məşrutə inqilabı adı il tanınmış, 1905-1911-ci illər inqilabı keçmişdə müstəbid hökmdarlara qarşı qaldırılmış və yalnız müstəbid dövləti kənarlaşdırmaq məqsədi daşıyan hərəkatlardan fərqli olaraq eyni zamanda ziyalılar və islahatlar tələb edən sahibkarlar və ruhanilərin təsiri ilə aydınlanmış bir proqrama malik ilk ümumi inqilab idi. Diktator hökumətin hakimiyyətinə son qoymaq, onu konstitusiyalı hakimiyyət çərçivəsində qanun hökuməti ilə əvəz etmək bu hərəkatın mühüm hədəflərindən idi. Bu inqilab sonda həm dövlət üçün qanuni bünövrə olan, həm də əsas prinsipləri olan parlamentli hökumətin əsasınl təşkil edən konstitusiya və onun tamamlayıcılarını təşkil etməyə nail oldu. Fəslin II və III yarımfəsilləri Məşrutə inqilabının başlanması, qələbəsi, nəticələrini əks etdirir. Məşrutə inqilabı ən yaxşı halda yeni dövlətin formalaşması ilə nəticələnə

[1] Mirəhmədi Məryəm (1369). Ədəbi tənqid, İranın tarixi ədəbiyyatının tədqiqi (1900-1950), 10-cu say, s.31-42.

və güclü ictimai bazaya nümayəndəlik edə bildi. Amma bu yeni və analogiyası olmayan vəziyyətin cəmiyyətin mədəniyyəti və strukturunda kökləri yox idi, daxili amillər də burada rol oynayırdı. Hər şey paytaxtda, məclisdə, cinahlarda, partiyalarda, rəqib siyasi şəxsiyyətlər arasında ixtilafla bitmirdi, dövlətin tənəzzülündən qaynaqlanan ənənəvi hərc-mərclik də öz qüvvəsində qalırdı. Buna görə də məşrutə inqilabından sonrakı illərdə İranın həm mərkəzində, həm də vilayətlərində qeyri-sabitlik və təfriqələr gün-gündən atırdı. Milli hökumət adlanan qanun hakimiyyəti formal şəkildə əldə edilmişdi. Amma İran əhalisinin hər zaman diktator hökumətlərin süqutundan sonra diktator davranışa qarşı verdikləri reaksiyada heç bir fərq yox idi. Məşrutəçilərin bir-birləri ilə münaqişələri ölkənin adi işlərində də çox böyük problemlər yaradırdı. Hətta əgər mərkəzdə azacıq qanunçuluq və əməkdaşlıq ruhiyyəsi olsaydı müdaxiləçi xarici dövlətləri, əyalət xanlarını, vilayət rəhbərlərini cilovlamaq olardı[1].

**Fəslin sonuncu - IV yarımfəsli «Qacarların sonuncu hökuməti və süqutu» adlanır.** Bu yarımfəsildə müxtəlif qaynaqlar və ədəbiyyat əsasında Qacarlar sülaləsi hakimiyyətinin son dövrü araşdırılır. Müəllif Məhəmmədəli şah və Əhməd şahın dövrlərində Qacarlar səltənətində yürüdülən daxili və xarici siyasəti nəzərdən keçirir. Dissertasiyanın bu bölümündə Qacarlar sülaləsinin İngiltərə, sovet dövləti və başqa dövlətlərlə qarşılıqlı əlaqələrinə toxunur, daxili siyasi böhranı aradan qaldırmaq üçün Qacar hökumətinin əl atdığı səmərəsiz tədbirləri dəyərləndirir. Burada həmçinin Qacarlar xanədanının süqutunun başlıca səbəblərinin müəyyənləşdirilməsinə də cəhdlər göstərilir.

Dissertasiyanın «**Nəticə**» hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

[1] Dovlətabadi Yəhya. 1362, Tehran, Əttar, III cild, s.283.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Qacarlar dövlətinin siyasi strukturu // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. Elmi Əsərlər. 2012, c.41-42-43, s.377-388.
2. İran tarixşünaslığında Qacarların mənşəyinə dair // Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları. Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, 27-28 iyun, 2013. Bakı, 2013, s. 714-717.
3. Qacarlar dövründə mədəni inkişaf // Sivilizasiya, 2014, №9, s.133-140.
4. Qacarlar dövründə sosial siniflər və iyerarxiya // AMEA Tarix İnstitutunun Elmi Əsərləri. 2014, №51, s.71-90.
5. Qacarların süqut amilləri // Sivilizasiya, 2015, №1, s.123-132.
6. К изучению Каджарского периода истории Ирана // Кавказ и Мир, №22, 2017, с.104-107.

**Salmanipour Tahira Mammadbagir gizi**

# IRAN UNDER THE RULE OF THE QAJARS

## SUMMARY

This thesis is devoted to the study of the history of Iran during the reign of the Turkic-Azerbaijani dynasty of the Qajars (1706-1925). As you know, during this period serious social, economic and military-political changes took place in Iran, leaving deep traces in the history of a multimillion and multinational Iran.

The introduction substantiates the relevance and importance of the topic, highlights the degree of studying of the problem, defines the goals and objectives of the research, describes its scientific novelty, methodological and theoretical basis, and shows the practical significance of it.

The first chapter of the thesis is called “The domestic policy of the Qajars” and consists of four paragraphs. This chapter highlights in details the origin of the Qajar dynasty. It is noted that the Qajars originate from the Turkic tribe of Samur. The author also considers the significance of the name of the Qajars and proves that it means “resolute”, “running”, “brisk or clever”, etc. in Turkic language.

In the same chapter, the structures of state bodies of the Qajars and their activities in the economic sphere are considered.

The second chapter of the thesis is called “The foreign policy of the Qajars”. It is divided into 4 paragraphs, which examines the relationship of the Qajar government with Western European states and the Muslim world, an attempt is made to assess international treaties concluded with various states, as well as the privileges given to foreigners.

The third chapter of the work is devoted to the study of the culture of Iran during the reign of the Qajars. In four paragraphs of this chapter the theses deals with the development of literature, science, the press, and so on in the Qajar Iran.

In the last - fourth chapter (“The Period of the Mashruta and the fall of the Qajar Dynasty”), the author of dissertation illuminates the socio-economic situation of the country, the beginning, the course and the main results of the 1905-1911 years’ revolution, as well as the activities of the last Qajar government and the fall of this dynasty in Iran.

In the conclusion, the main results are summarized and the main conclusions are given.

**Салманипур Тахира Маммадбагир гызы**

## ИРАН В ПЕРИОД ПРАВЛЕНИЯ КАДЖАРОВ

### РЕЗЮМЕ

Представленная к защите диссертация посвящена изучению истории Ирана в период правления азербайджанской династии Каджаров (1706-1925 гг.). Как известно, в этот период в Иране произошли серьёзные, как социально-экономические, так и военно-политические, изменения, оставившие глубокие следы в истории многомиллионного и многонационального Ирана.

Во введении обосновываются актуальность и значимость темы, широко освещается степень изученности проблемы, определяются цели и задачи исследования, характеризуются его научная новизна, методологическая и теоретическая основа, а также показывается практическое значение проведенного исследования.

Первая глава диссертации называется «**Внутренняя политика Каджаров**» и состоит из четырёх параграфов. В этой главе подробно рассматривается происхождение династии Каджаров. Отмечается, что Каджары происходят из тюркского племени Салур. Автор также рассматривает значение названия Каджаров и утверждает, что на тюркском языке оно означает «резкий», «бегущий», «юркий» и т.д.

В этой же главе рассмотрены структуры государственных органов Каджаров и их деятельность в экономической сфере.

Следующая – вторая глава диссертации называется «**Внешняя политика Каджаров**». Она разделена на 4 параграфа, в которых рассматриваются взаимоотношения каджарского правительства с западноевропейскими государствами и мусульманским миром, предпринята попытка оценить международные договоры, заключённые с различными государствами, а также привилегии, данные иностранцам.

Третья глава работы посвящена изучению культуры Ирана в период правления Каджаров. В четырёх параграфах этой главы диссертации рассматриваются развитие литературы, науки, печати и т.д. в каджарском Иране.

В последней – четвёртой главе (**«Период революции Машрута и падения династии Каджаров»**) диссертант освещает социально-экономическое положение страны, начало, ход и основные итоги революции 1905-1911 гг., а также деятельность последнего правительства Каджаров и падение этой династии в Иране.

В заключении подводятся основные итоги.

Əla növ kağız, formatı 60x84 – $^1/_{16}$
Tirajı 100 nüsxə.
AMEA TIKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**САЛМАНИПУР ТАХИРА МАММАДБАГИР гызы**

# ИРАН В ПЕРИОД ПРАВЛЕНИЯ КАДЖАРОВ

Специальность: 5503.02 – Отечественная история

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2017**